2019-cu ilin yanvar-fevral aylarında ev təsərrüfatlarında sənaye məhsulu istehsalı, habelə hüquqi şəxs yaratmadan fiziki şəxs kimi sənaye sahəsində fəaliyyət göstərənlərin işi də nəzərə alınmaqla 172200 min manatlıq sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,1 faiz çoxdur. Sənaye istehsalının 96,5 faizi malların, 3,5 faizi isə xidmətlərin payına düşmüşdür.

Sənayenin dövlət sektorunda 11662,9 min manatlıq, qeyri-dövlət sektorunda 160537,1 min manatlıq məhsul istehsal edilmişdir.

2019-cu ilin yanvar ayında muxtar respublikanın sənaye müəssisələrində 16327 nəfər işçi çalışmışdır ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz çoxdur. Sənaye sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,5 faiz artaraq 371,4 manat olmuşdur.